*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

*Heydər Əliyev.*



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 7 (9191) | 20 aprel 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.**

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

- Bu gün biz birinci rübün sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik, gələcək planlar haqqında danışacağıq. Deyə bilərəm ki, birinci rübün yekunları çox müsbətdir. Biz keçən ili də uğurla başa vurmuşduq. Baxmayaraq ki, keçən ilin sonunda bölgədə artıq böhran başlamışdır, Azərbaycan iqtisadiyyatın dinamik inkişafını təmin etmişdir və biz keçən ili də çox gözəl göstəricilərlə başa vurduq.Bu ilin birinci rübündə də bu müsbət meyillər davam edib. Mən keçən ilin sonunda əmin olduğumu bildirmişdim ki, 2015-ci il də ölkə iqtisadiyyatı üçün uğurlu il olacaq. Birinci rübün yekunları bu sözləri təsdiqləyir. Ümumi daxili məhsul 5 faizdən çox artmışdır. Bu, çox gözəl göstəricidir, həm region, həm dünya üçün. Bu gün dünyada 5,3 faiz, yaxud da ki, 6 faizə yaxın inkişaf edən iqtisadiyyatlar çox azdır.Azərbaycanda dinamik inkişaf təmin edilir və sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində mümkün olmuşdur. Çünki uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi bizim ümumi iqtisadi inkişafımıza təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir.Qeyri-neft sektoru prioritet olaraq qalacaq. Çünki bundan sonra Azərbaycan iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcəkdir. Şadam, artıq bir müddətdir ki, qeyri-neft sektorumuz ümumi daxili məhsulumuzun əksər hissəsini təşkil edir. Əminəm ki, bu faiz nisbəti getdikcə daha da artacaq və beləliklə, bundan sonra Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən daha da az asılı olacaq.Bir daha demək istəyirəm ki, neftin qiymətinin iki dəfədən çox düşməsi bizim ümumi dinamik inkişafımıza təsir etməmişdir, qeyri-neft sektoru əsas iqtisadi yükü öz üzərinə götürmüşdür. Bundan sonra məhz qeyri-neft sektorumuzun inkişafı ölkəmizin uğurlu iqtisadi inkişafını təmin edəcəkdir.Sevindirici haldır ki, sənaye istehsalı birinci rübdə artmışdır. Bildiyiniz kimi, son illər ərzində neftin hasilatının bir qədər düşməsi nəticəsində biz sənaye istehsalında artımı müşahidə etmirdik. Bu ilin birinci rübündə sənaye istehsalı təxminən 4 faiz artmışdır. Bu da görülən işlərin nəticəsidir. Keçən il Azərbaycanda "Sənaye ili" elan edilmişdir, bu sahəyə xüsusi diqqət göstərilmişdir. Ondan əvvəlki illərdə müasir sənaye komplekslərinin, texnoparkların yaradılması, kiçik və orta sahibkarlığın inkişafı sayəsində sənaye potensialımız böyük dərəcədə güclənmişdir. Bunun nəticəsidir ki, Azərbaycanda sənaye istehsalı artır.Kənd təsərrüfatında da artım var. Kənd təsərrüfatı 3 faizdən çox artmışdır. Hesab edirəm ki, bizi gələcəkdə kənd təsərrüfatının əsas artımı gözləyir. Çünki hazırda aparılan islahatlar, işlərin təkmilləşdirilməsi və düşünülmüş siyasət, əminəm ki, yaxın illərdə daha da sürətli artıma təkan verəcəkdir.



İnflyasiya Azərbaycanda çox aşağı səviyyədədir. Keçən il bir faizdən bir qədər çox idi. Bu il isə 2,8 faizdir. O da çox əlamətdar hadisədir ki, manatın məzənnəsinə bu ilin fevralında dəyişikliklər edilmişdir, buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu, onu göstərir ki, Azərbaycanda istehlak bazarına nəzarət tam təmin edilir, dövlət və hökumət bu məsələləri daim diqqət mərkəzində saxlayır.İnflyasiyanın aşağı səviyyədə olması, əlbəttə ki, insanların yaşayış səviyyəsinə müsbət təsir göstərir. Eyni zamanda, onu da bilməliyik ki, inflyasiya çox aşağı səviyyədə olanda iqtisadi inkişafı bir qədər əngəlləyir. Ona görə burada əlbəttə ki, düzgün balans seçilməlidir və Azərbaycanda makroiqtisadi vəziyyət daim diqqət mərkəzindədir. İnflyasiya həm sosial funksiyalarını özündə ehtiva etməlidir, eyni zamanda, ölkəmizin inkişafını, xüsusilə ixrac potensialımızın genişləndirilməsini təmin etməlidir. Hər il olduğu kimi, bu il də əhalinin pul gəlirləri inflyasiyanı üstələyir. Əhalinin pul gəlirləri 5,3 faizdir, təxminən iki dəfə inflyasiyadan artıqdır.Bax, budur bizim əsas iqtisadi göstəricilərimiz. Hesab edirəm ki, 2015-ci ildə istənilən ölkə üçün, xüsusilə neft-qaz sektoru inkişaf etmiş ölkələr üçün bu, həddindən artıq müsbət göstəricidir, deyə bilərəm ki, bizim böyük uğurumuzdur. Bu uğurları biz əldə etmişik, Azərbaycan xalqı əldə edib. Əgər biz vaxtilə ölkəmizin qeyri-neft sektorunun inkişafına bu qədər böyük diqqət göstərməsəydik, bəlkə də bu gün bu nəticələr o qədər də ürəkaçan olmazdı. Əksinə bizi staqnasiya, resessiya gözləyə bilərdi, necə ki, biz indi dünyada, bölgədə bəzi yerlərdə bunu müşahidə edirik.Azərbaycan iqtisadiyyatının xüsusiyyətləri ondan ibarətdir ki, bu, möhkəm təməl üzərində qurulub, özünü təmin edən iqtisadiyyatdır, xarici maliyyə resurslarından asılı deyil. Əksinə, biz indi özümüz donor kimi, həm başqa ölkələrə, eyni zamanda, beynəlxalq maliyyə qurumlarına maliyyə resurslarımızı təqdim edirik. Bu da bizə əlavə mənfəət gətirir. Azərbaycan iqtisadi müstəqilliyini tam şəkildə əldə etdikdə təbii ki, siyasi müstəqillik daha da güclənir.Regionlarda birinci rübdə müsbət meyillər müşahidə olunub. İş yerlərinin yaradılması prosesi gedir, 30 minə yaxın iş yeri, - onlardan 25 mini daimi iş yeridir, - açılmışdır. Bu, daimi prosesdir, çünki dəfələrlə qeyd etdiyim kimi, Azərbaycanda müsbət demoqrafik vəziyyət mövcuddur. Əhali artır, belə olan halda iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bizim iqtisadi potensialımız əhalinin artması ilə uzlaşmalıdır. Çünki əhalinin artması çox müsbət prosesdir, bu, ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin sürətli inkişafını göstərir. Çünki biz demoqrafik dinamikaya nəzər saldıqda görürük ki, məhz son illər ərzində əhalimiz kəskin şəkildə artmağa başlamışdır. İqtisadiyyat da öz növbəsində bu artım üçün gözəl imkan yaratmalıdır ki, daim iş yerləri açılsın və işsizlik aşağı səviyyədə olsun. Hazırda işsizlik və yoxsulluq ən aşağı səviyyədədir, 5 faiz səviyyəsindədir.Sosial məsələlər öz həllini tapır. Bu sahə daim diqqət mərkəzindədir və bizim düşünülmüş iqtisadi islahatlarımız bütün dövrlərdə güclü sosial siyasətlə də tamamlanırdı. Bu il bütün sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün əlavə vəsait ayrılır, məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir.Hazırda 20-dən çox tibb müəssisəsi tikilir və təmir edilir, əhalinin diaqnostikası məsələləri öz həllini tapır, müayinədən keçmə prosesi uğurla gedir. Keçən il 5 milyon, bu il isə təqribən artıq 4 milyona yaxın Azərbaycan vətəndaşı müayinədən keçmişdir. Son illərdə bütün bölgələrdə müasir tibb mərkəzləri yaradılmışdır. Yəni, indi müayinədən keçmək üçün Bakıya gəlməyə ehtiyac yoxdur. Hər bir yerdə müasir tibb ocaqları var ki, insanlara gözəl xidmət göstərməlidir.Sosial siyasətimizin digər aspektləri də daim diqqət mərkəzindədir. Sosial sahə insanların rifah halını, rahat yaşamasını təmin edən sahədir. Ona görə Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlayır. Təbii ki, bizim gəlirlərimiz azalıb. Çünki neftin satışından əldə edilən gəlirlər təbii olaraq azalır. Ancaq əvvəlki illərdə əldə edilmiş maliyyə resursları, eyni zamanda, düşünülmüş siyasət, qeyri-neft sektorunun inkişafı və xarici investisiyaların cəlb edilməsi bizə imkan verir ki, hətta azalan gəlirlərlə bütün sosial öhdəlikləri yerinə yetirək və ölkə üçün vacib olan infrastruktur layihələrini icra edək. Bizim islahatlar aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görübdür. İldən-ilə bizim yerimiz yaxşılaşır. Biz daha bir pillə qalxmışıq və dünya miqyasında rəqabətqabiliyyətliliyə görə 38-ci yeri tutmaq hesab edirəm ki, gənc dövlət üçün böyük nailiyyətdir və bu yeri biz neftə, qaza görə yox, məhz düşünülmüş islahatlara görə qazanmışıq. Mən dünya birliyi deyəndə bütün ölkələri nəzərdə tuturam. Çünki dünya birliyi hansısa bir təşkilat deyil. Dünya birliyi bütün ölkələrdir. Bütün ölkələr BMT-də təmsil olunur və bilirsiniz ki, bizim BMT-dəki mövqelərimiz çox güclüdür. Əgər belə olmasaydı, bir neçə il bundan əvvəl 155 ölkə bizi BMT Təhlükəsizlik Şurasına üzv seçməzdi.Biz öz prinsipial beynəlxalq siyasətimizi bu il də davam etdiririk. Bu ilin əvvəlindən baxmayaraq ki, cəmi 3 aydan bir qədər çox vaxt keçib, mənim çoxsaylı səfərlərim bizim beynəlxalq mövqelərimizi daha da möhkəmləndirib. İlin əvvəlindən mən Türkiyəyə iki dəfə səfər etmişəm, Almaniyaya, Bolqarıstana, Vatikana və Səudiyyə Ərəbistanına səfərlər etmişəm. Yəni, 3 ay ərzində edilən bu səfərlər artıq Azərbaycanın çoxşaxəli xarici siyasət apardığını göstərir. Eyni zamanda, mən ilin əvvəlində dünyanın iki aparıcı iqtisadi və siyasi forumlarında iştirak etmişəm - Davosda və Münxendə. Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı. O da sirr deyil ki, bu tədbirlərə məhdud sayda qonaqlar dəvət edilir. Bu tədbirlərdə dünyanın həm üzləşdiyi problemlər açıq və qapalı şəkildə müzakirə edilir, eyni zamanda, orada imkan yaradılır ki, hər bir iştirakçı öz baxışlarını ifadə etsin, öz fikirlərini bölüşsün. Azərbaycanın mövqeyi bir çox məsələlərlə bağlı çox böyük önəm daşıyır. Təkcə enerji siyasəti deyil, ümumiyyətlə, geosiyasi məsələlər, təhlükəsizlik məsələləri, iqtisadi əməkdaşlıq və sabitlik. Çünki baxın, indi dünyanın hər bir yerində qarşıdurma, müharibə, ziddiyyət, böhran, çevrilişlər və digər xoşagəlməz hallar müşahidə edilir. Bir il deyil, iki il deyil, artıq 10 ilə yaxındır ki, hər tərəf yanır. Azərbaycan sabitlik adasıdır, inkişaf məkanıdır və təbii ki, bu, dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bizim əsas problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi əfsuslar ki, həll olunmamış qalır. Bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm, bunun yeganə səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir. Baxmayaraq, Minsk qrupuna həmsədrlik edən dövlətlərin başçıları dəfələrlə bildirmişlər ki, status-kvo qəbuledilməzdir. Ermənistan buna məhəl qoymur və bu dövlətlər bu bəyanatlardan başqa heç bir konkret addımlar da atmırlar. Ona görə bu bəyanatlar havada qalır və beləliklə, münaqişə uzanır, öz həllini tapmır. Keçən ilin sonlarından Ermənistan tərəfi daim bizim mövqelərimizə hücumlar çəkir, bu, bu il də davam edir. Bu hücumlar nəticəsində onlarla erməni öz həyatını itirmişdir. Bizdə olan məlumata görə son 3-4 ay ərzində 50-dən çox işğalçı təmas xəttində məhv edilmişdir. Bunun günahkarı kriminal Ermənistan rejimidir, onun başçılarıdır, Ermənistanda hökm sürən diktatura rejimidir. Bu barədə mən artıq öz fikirlərimi bildirmişəm. Əgər ölmək istəmirsinizsə, Azərbaycan torpaqlarından rədd olun. Azərbaycan öz prinsipial mövqeyindən əl çəkməyəcək. Fevralın 12-də "Cənub" Qaz Dəhlizi Məşvərət Şurasının birinci iclası bizim təşəbbüsümüzlə Bakıda keçirilmişdir. Bildiyiniz kimi, keçən il sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur və Məşvərət Şurası iclasının keçirilməsi çox önəmli hadisə idi. Bu toplantıda "Cənub" qaz dəhlizinin bizimlə əməkdaşlıq edən bütün mövcud və gələcək üzvləri iştirak edirdi. Mətbuata verilən yekun bəyanat da çox müsbət idi, orada Azərbaycanın liderlik rolu qeyd edilib. Mart ayında Türkiyənin Qars şəhərində TANAP layihəsinin təməl daşı qoyulmuşdur. Bu hadisə əlbəttə ki, dünya birliyinin diqqətini cəlb etdi. TANAP layihəsi "Cənub" qaz dəhlizinin tərkib hissəsidir. Bildiyiniz kimi, "Cənub" qaz dəhlizi 4 hissədən ibarətdir, TANAP onun önəmli hissəsidir. Azərbaycan TANAP layihəsinin icrasında əsas, yəni, səhmdar kimi fəaliyyət göstərir. Artıq işlər başlayır və hesab edirəm ki, Azərbaycan qazı -"Şahdəniz-2"dən çıxarılacaq qaz 2018-ci ildə Türkiyəyə çatdırılacaqdır. TAP layihəsi də icra edilməlidir. Hesab edirəm ki, TAP layihəsinin icrası üçün bəzi hallarda yaradılan süni maneələr aradan qaldırılacaq və Avropa ölkələri, bu layihədə iştirak edən ölkələr və Avropa İttifaqı bu məsələləri özləri həll edəcəkdir. Biz 2012-ci ildə Prezident Ərdoğanla İstanbulda TANAP layihəsini imzaladıq və 2015-ci ildə TANAP layihəsinin təməl daşını qoyduq. Görün, qısa müddət ərzində nə qədər iş görülmüşdür. Bundan əvvəl TAP layihəsi seçilmişdir, "Şahdəniz-2" layihəsinə start verilmişdir və Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri də artıq inşa edilir. Bax, bizim işimiz bunlardan ibarətdir, boşboğazlıq yox, konkret, nəticəyə hesablanmış işlər. Biz heç vaxt populist vədlər verməmişik, konkret nəyi demişiksə onu da etmişik. Ona görə birinci rübdə ümumi iqtisadi inkişafla əlaqədar dediyim bax bu sözlər bizim uğurlu siyasətimizi bir daha göstərir. Eyni zamanda, birinci rübdə enerji siyasətimizi bundan sonra uğurla aparmaq üçün çox önəmli addımlar atılmışdır. Əminəm ki, nəzərdə tutulan bütün vəzifələr ilin sonuna qədər icra ediləcək, dinamik inkişaf təmin olunacaq, iqtisadiyyat, qeyri-neft sektorumuz artacaq və Azərbaycan 2015-ci ildə daha da böyük zirvələrə çatacaqdır.

Sonra vergilər naziri Fazil Məmmədov, nəqliyyat naziri Ziya Məmmədov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev çıxış etdilər.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitq söylədi.

## QAZAX ŞƏHƏRİNDƏ BİR NEÇƏ YENİ KÜÇƏYƏ ADLAR VERİLMİŞ VƏ KÜÇƏ ADLARI DƏYİŞDİRİLMİŞDİR

**Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli, 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi qaydaları"nda dəyişiliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 10 Fevral 2012-ci il tarixli, 590 nömrəli Fərmanının icrası məqsədi ilə Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov sərəncam vermişdir. 9 aprel 2015-ci il tarixli, 20/38 nömrəli sərəncama əsasən Qazax şəhərində yeni küçələrə aşağıdakı adlar verilmişdir:**

**1.** Başlanğıcını Əhməd Seyidov küçəsinin kəsişməsindən götürən küçə İsmayıl Şıxlı küçəsi adlandırılsın.

**2.** Başlanğıcını adlandırılacaq İsmayıl Şıxlı küçəsinin kəsişməsindən götürən küçə Vaqif Səmədoğlu küçəsi adlandırılsın.

**3.** Başlanğıcını Azadalıq küçəsinin kəsişməsindən götürən küçə Firudin Köçərli küçəsi adlandırılsın.

**4.** Başlanğıcını Əliağa Şıxlinski küçəsinin kəsişməsindən götürən 1-ci küçə Müseyib Allahverdiyev küçəsi adlandırılsın.

**5.** Başlanğıcını Əliağa Şıxlinski küçəsinin kəsişməsindən götürən 3-cü küçə Məhəmməd Füzuli küçəsi adlandırılsın.

**6.** Başlanğıcını Əliağa Şıxlinski küçəsinin kəsişməsindən götürən 4-cü küçə Həzi Aslanov küçəsi adlandırılsın.

**7.** Başlanğıcını Ələddin Qədirov küçəsinin kəsişməsindən götürən 1-ci küçə Mirzə Fətəli Axundov küçəsi adlandırılsın.

**8.** Başlanğıcını Ələddin Qədirov küçəsinin kəsişməsindən götürən 2-ci küçə Ziya Bünyadov küçəsi adlandırılsın.

**9.** Başlanğıcını Ələddin Qədirov küçəsinin kəsişməsindən götürən 3-cü küçə Üzeyir Hacıbəyov küçəsi adlandırılsın.

**10.** Başlanğıcını Ələddin Qədirov küçəsinin kəsişməsindən götürən 4-cü küçə Dədə Qorqud küçəsi adlandırılsın.

**11.** Başlanğıcını Ələddin Qədirov küçəsinin kəsişməsindən götürən 5-ci küçə Cəfər Cabbarlı küçəsi adlandırılsın.

Qazax şəhərində aşağıdakı küçələrin adları dəyişdirilmişdir:

**1.** Sabir Arıxovun adına olan küçənin adı dəyişdirilib Firudin Şamoyev adlandırılsın.

**2.** Əli Süleymanovun adına olan küçənin adı dəyişdirilib Hüseyn Arif adlandırılsın.

Yeni küçələrə adların verilməsi və adların dəyişdirilməsi ilə əlaqədar Qazax RİH Başçısının şəhər İƏD üzrə nümayəndəliyinə, Qazax bələdiyyəsinə, rayon polis şöbəsinin qeydiyyat və şəxsiyyət vəsiqəsi bölməsinə, mənzil istismar sahəsinə, daşınmaz əmlakın dövlət reyestr xidmətinin 15 saylı ərazi idarəsinə, "Göyəzən" qəzetinə müvafiq göstətişlər verilmişdir.

Sərəncamın icrasına nəzarət RİHB-nın birinci müavini Fərman Nağdalıyevə tapşırılmışdır.

# HESABAT YIĞINCAĞI KEÇİRİLMİŞDİR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə aprel ayının 10-da Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir. Bununla əlaqədar Qazax rayonunda hesabat yığıncağı olmuşdur.**

Rayon İcra Hakimiyyətində keçirilən hesabat yığıncağında rayon ictimaiyyətinin nümayəndələri, idarə və müəssisə rəhbərləri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov iclası giriş sözü ilə açaraq tədbirin gündəliyi barədə yığıncaq iştirakçılarına məlumat vermişdir.

Yığıncaqda rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, hesabat dövründə Prezident İlham Əliyevin rəhbərliyi altında respublikamızda genişmiqyaslı işlər görülmüşdür. Respublikamızda gedən dinamik inkişaf strategiyası Qazax rayonunda da davam etdirilmiş və 2015-ci ilin birinci rübündə bütün sahələr



üzrə uğurlu göstəricilər qazanılmışdır. Hesabat dövründə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində yaddaqalan tədbirlər həyata keçirilmiş, əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində mühüm işlər aparılmışdır. Rayonda “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa və quruculuq işləri 2015-ci ilin birinci rübündə də uğurla davam etdirilmişdir.

Məruzə ətrafında çıxışlar olmuşdur. Qazax rayonu üzrə Maliyyə İdarəsinin rəisi Novruz Abdullayev, rayon Mərkəzi Xəstəxanasının baş həkimi Arzu Novruzov, Mədəniyyət və Turizm şöbəsinin müdiri Valeh Vəliyev, Suvarma Sistemlər İdarəsinin rəisi Abbas Göyüşov çıxış edərək rəhbərlik etdikləri idarə və müəssisələrdə hesabat dövründə görülən işlərdən söz açmışlar.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov hesabat yığıncağına yekun vuraraq qarşıda duran vəzifələrdən, həyata keçiriləcək işlərdən danışmışdır.

**Elçin İSMAYIL**

# 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun

# HESABAT MƏRUZƏSİ

**Aprel ayının 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş iclası keçirilmişdir. İclasda ölkə başçısı cari ilin ilk üç ayı ərzində Azərbaycanda həyata keçirilmiş genişmiqyaslı işlərə, qazanılan uğur və nailiyyətlərə öz münasibətini bildirmiş, qarşıda duran vəzifələrdən danışmışdır.**

Ölkə başçısı öz çıxışında qeyd etmişdir ki, ölkədə cari ilin ilk 3 ayı ərzində ümumi daxili məhsul 5 faizdən çox, qeyri-neft sektoru isə 7 faiz artmışdır. 3 ay ərzində inflyasiya cəmi 2,8 faiz olmuş, əhalinin pul gəlirləri təxminən 5,3 faiz artmış, kənd təsərrüfatında 3 faizdən çox artım olmuşdur.

“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə əlaqədar cari ilin 3 ayı ərazində ölkəmizdə 30 min yeni iş yeri açılmışdır ki, onun 25 mini daimidir. Hazırda işsizlik və yoxsulluq ən aşağı səviyyədə-5 faiz, sənaye istehsalı 4 faiz səviyyəsindədir.

Hazırda ölkəmizdə çox böyük sahibkarlıq sinfi yaradılmışdır. Ölkəmizin ümumi inkişafı bundan sonra daha çox sahibkarlığın inkişafından asılı olacaqdır. Bir çox sahələr artıq sahibkarlıq hesabına formalaşır. Ümumi daxili məhsulumuzun 80 faizdən çoxu özəl sektorda formalaşır.

Ölkəmizdə bütün istiqamətlərdə işlər plan, proqramlar üzrə həyata keçirilir, məktəblər, uşaq bağçaları, tibb müəssisələri tikilir. Dövlət İnvestisiya Proqramı uğurla icra edilir.

Hazırda ölkə üzrə bütün bölgələrdə böyük infrastruktur layihələri icra edilir. Onların tam əksəriyyəti dövlət tərəfindən maliyyələşdirilir. Yollar, su kanalizasiya layihələri, qazlaşdırma, elektrik xətlərinin, kənd yollarının çəkilməsi davam etdirilir.

Ölkəmizdə aparılan islahatlar aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilir. Davos Dünya İqtisadi Forumu ölkələrin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu, gənc bir dövlət üçün çox böyük nailiyyətdir.

Ölkəmizin beynəlxalq nüfuzu günü-gündən artır. Azərbaycan dünya birliyinin etibarlı, dəyərli üzvüdür. Azərbaycanda gedən işlər dünya birliyi tərəfindən izlənilir və böyük təqdirlə qarşılanır.

2015-ci ilin birinci rübü rayonumuz üçün də uğurlu olmuşdur.

Qazax rayonu üzrə 2015-ci ilin yerli gəlir və xərclərinin proqnozu 21.019.000 manat məbləğində müəyyənləşdirilmişdir. Büdcənin mədaxil hissəsinin 6.716.000 manatını yerli daxilolmalar, 14.303.000 manatını isə mərkəzləşdirilmiş xərclərdən alınacaq dotasiya təşkil etmişdir. Mədaxil hissədə yerli daxilolmalar 32,0 faiz, dotasiya isə 68,0 faiz olmuşdur.

2015-ci ilin birinci rübündə yerli daxilolmalar 1.410.360 manat proqnoza qarşı 1.656.089 manat və ya 117,4 faiz yerinə yetirilərək büdcəyə 245.729 manat çox vəsait mədaxil olmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə büdcəyə 470.868 manat çox vəsait daxil olmuşdur. Mərkəzləşdirilmiş xərclərdən alınası dotasiya 3.234.839 manat icra olunmuşdur.

2015-ci ilin 3 ayında yerli xərclər 92,1 faiz və ya 368.548 manat az icra olunmuşdur. İcra zamanı ilk növbədə əməkhaqqı və ona bərabər tutulan zəruri xərclərin ödənilməsinə üstünlük verilmişdir. Cəmi yerli xərclər 4.645.199 manata qarşı 4.890.928 manat yerinə yetirilmişdir (105,3 faiz).

Rayon ərazisində 7 özəl bank filialı, 1 özəl bank şöbəsi, 1 kredit ittifaqı və 4 bank olmayan kredit təşkilatı fəaliyyət göstərir. 2015-ci ilin 3 ayı ərzində əhaliyə 8.077.346 manat kredit verilmişdir ki, bunun da hamısı qısamüddətlidir.

Əhalidən 105.000 manat əmanət və 20 min ABŞ dolları cəlb olunmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 33 nəfərə 381.000 manat (78 iş yeri), Kənd yerlərinin kreditləşməsi yolu ilə 129 nəfərə 146.400 manat kredit verilmişdir.

Dövlət Sosial Müdafiə Fondunun Qazax rayon şöbəsi tərəfindən əhalinin pensiya və müavinətlərinin ödənilməsi üçün 2015-ci ilin 3 ayında ödəniş müəssisələrinə 6.971.500 manat vəsait köçürülmüşdür. Bu isə keçən ilin müvafiq dövrünə nisbətən 141.200 manat çoxdur. Şöbədə 2015-ci ilin 3 ayında sosial sığorta haqları üzrə yığım proqnozu 87,6 faiz yerinə yetirilmişdir. Bu göstərici büdcə təşkilatları üzrə 1.000.000 manat proqnoza qarşı 926.000 manat, yəni 93,0 faiz, qeyri-büdcə təşkilatları və fiziki şəxslər üzrə isə 259.000 manata qarşı 192.000 manat toplanmaqla 74,0 faiz yerinə yetirilmişdir. Toplanmış vəsait 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 154.000 manat artıq olmuşdur.

2015-ci ilin birinci rübündə Qazax rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən 1.211.640 manat aylıq müavinət və birdəfəlik müavinət təyin edilmiş və ödənilmişdir. Ötən 3 ay ərzində Mərkəz tərəfindən 1.564 ailəyə ünvanlı sosial yardım təyin edimiş, həmin ailələrə əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 6.171.497 manat vəsait ödənilmişdir.

Hesabat dövrü ərzində əhalinin elektrik enerjisi və təbii qaz yanacağı ilə təmin olunması sahəsində də müəyyən işlər görülmüşdür.

2015-ci ilin birinci rübündə Qazax Elektrik şəbəkəsi tərəfindən 10 kv hava xəttində 0,4 km, 0,4 kv hava xəttində 0,74 km uzunluğunda cari təmir işləri aparılmış, 12 ədəd yararsız dayaqlar yenisi ilə əvəz edilmiş və 14 ədəd transformator cari təmir olunaraq sxemaya qoşulmuşdur. Əhali tərəfindən 122 yeni tikilmiş evlərə sayğaclar quraşdırılmış və xətlər çəkilərək gərginlik verilmişdir.

Ötən dövrdə əhaliyə satılan enerjinin dəyəri 1.210.800 manat, toplanan vəsait isə 975.800 manat olmuşdur. Cəmi yığım 84,6 faiz, o cümlədən yerli əhali üzrə 99,4 faiz yerinə yetirilmişdir.

Bildiyiniz kimi Qazax rayonun bütün yaşayış məntəqələri təbii qazla təmin olunmuşdur. Rayon Qaz İstismar Sahəsi tərəfindən 3 ayda əhali abonentlərə satılmış qazın dəyəri 1.392.687 manat olmuş, 1.309.976 manat (94,1 %) vəsait yığılmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 12.760 manat çox vəsait toplanmışdır.

Qazax Telekommunikasiya Qovşağı cari ilin 3 ayında planı 101 faiz yerinə yetirmiş, qovşağın inzibati binasında Cənubi Koreya respublikası ilə birgə layihə çərçivəsində elektron tədris mərkəzi tikilmiş, kompyuter və avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir.

Hesabat dövründə Qazax Poçt filialı tərəfindən əhalidən enerji, qaz, su və telefon pulları qəbul edilərək aidiyyəti təşkilatların bank hesablarına köçürülmüş, plan tapşırıqları 122 faiz yerinə yetirilmişdir. Filial tərəfindən 758 ədəd bağlama qəbul edilmiş və 156 ədəd bağlama müxtəlif ünvanlara göndərilmiş, plan tapşırıqları 136 faiz yerinə yetirilmişdir.

Qazax-Avtovağzal ATSC-i 2015-ci ilin birinci rübündə plana 108 faiz əməl edərək 69.000 sərnişinə xidmət göstərmişdir.

Qazax Su-Kanal idarəsi tərəfindən 2015-ci ilin 3 ayında 5.878 abonentə xidmət göstərilmiş və 67.393 manat vəsait toplanmışdır. Bu isə satışın 101,0 faizini təşkil edir. Təşkilat tərəfindən 1 ədəd subartezian nasosu, 3 ədəd su mühərriki əsaslı təmir olunub və 1 ədəd su nasosu yenisi ilə əvəz olunmuşdur.



Kommunal mənzillərin dam örtüklərində əsaslı təmir işlərinə başlanılmışdır.

Qazax Mənzil İstismar Sahəsi balansında olan iki binanın dam örtüyündə əsaslı və 12 yaşayış binasının dam örtüyündə cari təmir işləri aparmış, ötən 3 ayı ərzində vətəndaşlardan 102,3 faiz mənzil xidmət haqqı toplamışdır.

2015-ci ilin 3 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələri tərəfindən də bir sıra işlər görülmüşdür.

Rayon Təhsil şöbəsinin tabeliyində olan 34 tam orta, 6 orta ümumtəhsil, 7 ibtidai məktəbdə 11.329 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1.768 nəfər müəllim məşğul olur.

2015-ci ilin yanvar ayında olimpiadanın ikinci rayon turunda 8 fənn üzrə 102 nəfər şagird iştirak etmişdir. Onlardan 2 nəfəri-birinci yer tutumuş şagirdlər aprel ayında Bakı şəhərində keçiriləcək respublika turunda iştirak edəcəkdir. Bu şagirdlər məktəb-liseyin X sinif şagirdi Məmmədova Leyla (Azərbaycan dili və Ədəbiyyat fənni) və şəhər 2 saylı tam orta məktəbin X sinif şagirdi Mirzəyev İlhamdır (Fizika fənni). Canalı kənd tam orta məktəbin X sinif şagirdi 47-ci Beynəlxalq Kimya Olimpiadasında bütün mərhələlərdən keçərək Milli komandaya üzv seçilmiş və Bakı şəhərinə dəvət edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirinin 31.01.2014-cü il tarixli 46-14529/16 nömrəli məktubuna müvafiq olaraq Qazax rayonunun 839 nəfər XI sinif şagirdlərinə ulu öndərin irsinin öyrənilməsi ilə əlaqədar fevral-mart aylarında Heydər Əliyev Mərkəzlərində dərslər keçirilmişdir. Dərsləri rayonunun qabaqcıl tarix müəllimləri tərtib olunmuş qrafik əsasında tədris edirlər.

Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan və hər kəs tərəfindən bəyənilən ”Ölkəmizi tanıyaq” layihəsinin icrası ilə bağlı rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayonumuzun 10 nəfər şagirdinin Naxçıvan Muxtar Respublikasına ekskursiyası təşkil edilmişdir.

Rayon Mədəniyyət və Turizm şöbəsi 2015-ci ilin 3 ayında rayonda bayram konsertləri, şənliklər keçirmiş, əlamətdar günlər münasibətilə 15 mədəni-kütləvi tədbirlər təşkil etmişdir.

Hesabat dövründə rayonun səhiyyə müəssisələrində ambulator gəlişlərin sayı 43.850 nəfər olmuş, 1.751 nəfər isə flüoqrafik və rentgen müayinəsindən keçirilmişdir. 3 ay ərzində 56 nəfər şəkərli diabet, 38 nəfər vərəm, 25 nəfər onkoloji xəstə aşkar edilərək dispanser qeydiyyata götürülmüşdür.

Dövlət başçısı İlham Əliyev cənablarının tapşırığına əsasən ölkəmizdə əhalinin tibbi müayinədən keçirilməsi aksiyası Qazax rayonunda da uğurla davam etdirilir. Rayon İcra Hakimiyyəti Başçısının sərəncamı ilə yaradılmış komissiya əhali arasında təbliğat, təşviqat və məlumatlandırma işləri aparır. Bunun nəticəsidir ki, əhali aksiyada mütəşəkkil sürətdə iştirak edir. Müayinə nəticəsində 3.269 nəfərə ambulator, 427 nəfərə stasionar müalicə kursu təyin olunmuş, 159 nəfər isə Bakı şəhərinə müalicəyə göndərilmişdir.

Qazax Müalicə Diaqnostika Mərkəzinə 3 ay ərzində 3.697 ambulator gəliş olmuş, mərkəzdə 14.788 ümumi müayinə olunmuş, 229 cərrahi əməliyyat aparılmış və hemodializ şöbəsində 80 xəstəyə 2.012 hemodializ seanslar tətbiq olunmuşdur.

Rayon Gənclər və İdman idarəsi tərəfindən 2015-ci ilin 3 ayında gənclərlə iş sahəsi üzrə 5, bədən tərbiyəsi və idman sahəsi üzrə 9 tədbir keçirilmişdir. Keçirilən tədbirlərdə gənclərin bütün təbəqələri təmsil olunmaqla 1.595 nəfər yeniyetmə və gənc iştirak etmişdir. Hesabat dövründə beynəlxalq yarışlarda 2, Respublika yarışlarında 19 nəfər idmançımız mükafata layiq yerlər tutmuşdur.

2015-ci ilin birinci rübündə rayon üzrə əsas kapitala yönəldilən investisiyaların həcmi 4.350.000 manat, ümumi məhsul buraxılışının həcmi 26.275.000 manat olmuşdur ki, bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Sənaye məhsulunun ümumi həcmi 2.910.000 manat, kənd təsərrüfatı məhsullarının həcmi 7.530.000 manat olmuşdur. Adambaşına düşən ümumi məhsulun həcmi 288 manat, orta aylıq əməkhaqqı 265 manat olmuşdur.

“Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı” ilə əlaqədar Qazax rayonunda davamlı surətdə yeni iş yerləri açılır. Birinci rübdə 8 yeni müəssisə yaradılmış, 168-i daimi olmaqla 306 yeni iş yeri açılmışdır.

2015-ci ilin 3 ayı ərzində Qazax Məşğulluq Mərkəzinə 12 dövlət və 4 qeyri-dövlət müəssisələrindən 192 boş iş yeri təqdim edilmiş, müraciət etmiş 164 nəfər vətəndaşlardan 82 nəfəri iş axtaran kimi qeydiyyata alınmış, 38 nəfər münasib işlə təmin olunmuşdur.

Rayonda “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq təmir-tikinti, abadlıq, bərpa, quruculuq işləri əvvəlki illərdə olduğu kimi 2015-ci ilin birinci rübündə də uğurla davam etdirilmişdir. Belə ki, illik gücü 1 milyon ton, ərazisi 56 hektar olan Qazax Sement zavodunun birinci hissəsində tikinti işləri başa çatdırılmış, II hissədə tikinti işləri davam etdirilir.

Qazax Konserv zavoduna 2014-cü ildə tikintisi başlanılmış yeni kartof anbarında işlər tamamlanmışdır. Hər biri 480 m2 olmaqla 4 anbar və 504 m2-lik beşinci anbar sahələri uyğun olaraq avtomatik idarə olunan soyutma, havalandırma və isitmə sistemləri ilə təchiz edilmişdir. Son texnologiyalar əsasında tikilib istifadəyə hazır vəziyyətə gətirilmiş bu anbar 5500 ton təzə kartofun müasir üsullarla öz keyfiyyətinin qorunaraq saxlanmasına imkan verməkdədir.

Bundan əlavə Qazax-Kosalar avtomobil yolunun tikinti işlərinə başlanılması nəzərdə tutulmuşdur.

Dövlət Proqramına uyğun olaraq Qazax şəhərində tikintisi nəzərdə tutulmuş 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi məqsədilə sənədləşdirmə işləri aparılır.

Qazax şəhərinin prospekt və küçələrində yeni işıqlandırma sistemlərinin quraşdırılması işləri davam etdirilir.

2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 16, Nazirlər Kabinetinin Sərəncamına əsasən 2 ədəd, cəmi 18 ədəd subartezian quyuları yaxın vaxtlarda əhalinin istifadəsinə veriləcəkdir. Bundan əlavə Respublika Prezidentinin Sərəncamına uyğun olaraq 9 ədəd qazılacaq subartezian quyularının əraziləri müəyyənləşdirilmiş, hazırda layihələndirmə işləri aparılır.

Rayonun kənd yaşayış məntəqələrində kənd daxili yollara qum-çınqıl döşənmişdir. Bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2012-ci il tarixli 374s saylı sərəncamına uyğun olaraq köhnə mərkəzi xəstəxananın yerində yeni 145 çarpaylıq Mərkəzi Xəstəxana Kompleksinin tikintisinə başlanılmışdır. Müvəqqəti olaraq işlər dayandırılmışdır. Yaxın zamanlarda işlərə başlanılacaqdır.

Ölkə Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş “Qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq Qazax rayonunun Qazaxbəyli kəndi ərazisində 304 məcburi köçkün ailəsinə bütün infrastrukturlarla birlikdə yeni yaşayış binalarının tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılmışdır. Hazırda tikinti işlərinə başlanılmışdır. Qızıl Hacılı kəndinin sakinləri üçün Nazirlər Kabinetinin 3 mart 2015-ci il tarixli 77s saylı Sərəncamı ilə 19,4 hektar torpaq sahəsinin təyinatı dəyişdirilmiş, 78 ailəyə yaşayış evlərinin bütün infrastrukturlarla tikintisi məqsədilə sənədləşmə işləri aparılır.

Rayon ərazisində 16.000 ədəd müxtəlif növ ağac əkilmişdir. 5.000 ədəd gül kolları gətirilmiş, park və xiyabanlarda əkilməsinə başlanılmışdır.

2015-ci ilin birinci rübü ərzində Qazax rayonunda kənd təsərrüfatı məhsullarının artırılması məqsədilə də bir sıra səmərəli işlər görülmüş və müsbət nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 2007-ci il tarixli 32 nömrəli və sonrakı Qərarlarının icrası ilə əlaqədar kənd təsərrüfatı məhsulları istehsalçılarına istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsi vəsaiti hesabına 3.833 hektar buğda əkini üçün 153.324 manat yardım hesablanaraq istehsalçılara verilmişdir.

Kənd təsərrüfatı bitkilərinin normal suvarma suyu ilə təmin etmək məqsədi ilə Qazax Suvarma Sistemləri İdarəsi və Melioservis İdarəsi tərəfindən birinci rübdə plana uyğun olaraq arxlarda 175 min m3 lildən təmizləmə işləri aparılmışdır.

Bu ilin məhsulu üçün indiyə kimi erkən yazlıqlardan cəmi 405 hektar, o cümlədən 100 hektar yonca, 110 hektar kartof, 150 hektar yazlıq dənlilər və 45 hektar tərəvəz əkilmişdir. Hazırda əkin işləri davam etdirilir.

2015-ci ilin birinci rübü ərzində rayonda ağac əkini davam etdirilmiş, əkilmiş 129.500 ədəd ağacın 15.000 ədədi Bakı-Qırmızı Körpü magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində əkilmişdir. Əkilmiş ağaclara aqrotexniki qulluq işləri göstərilir.

İstehsalçılara texnika cəhətdən kömək göstərilməsi məqsədilə aqroservisdə və şəxsi vətəndaşlarda olan 45 ədəd şum traktoru, 346 ədəd təkərli traktorlar, 10 ədəd toxum təmizləyən, 25 ədəd taxıl və qarğıdalı səpən, 17 ədəd mala, 12 ədəd gübrəsəpən və 50 ədəd digər kənd təsərrüfatı texnikalarından istifadə olunur.

Hesabat dövründə bitkiçilik sahəsində olduğu kimi, heyvandarlıq sahəsində də uğurlar əldə olunmuşdur. Süni yolla mayalandırılmış heyvanlardan 181 baş bala alınmışdır. Heyvandarlıq sahəsində zoobaytar tədbirlərinin planlı surətdə həyata keçirilməsinin nəticəsidir ki, məhsul istehsalı dinamik surətdə artmaqdadır. Belə ki, keçən 3 ay ərzində ötən ilin eyni dövrünə nisbətən 105 ton artıq süd istehsal olunaraq 7.453 tona, 228 ton artıq ət istehsal olunaraq 1.352 tona və 61 min ədəd çox yumurta alınaraq 2.538.000 ədədə çatdırılmışdır.

Qazax rayonu Baytarlıq idarəsi tərəfindən 2015-ci ilin birinci rübündə epizootik, müalicə-profilaktik tədbirlər planına uyğun olaraq 30.049 baş iribuynuzlu və 1.491 baş təkdırnaqlılar qarayara, 97 baş iribuynuzlu heyvanlar dabax, 4.817 baş ev itləri quduzluq xəstəliyinə qarşı peyvənd edilmişdir. Həmçinin 180.620 baş körpə ev quşları taun xəstəliyinə qarşı La-Sota ilə peyvənd olunmuşdur.

2015-ci ilin 3 ayı ərzində Qazax RİH başçısı tərəfindən 10 səyyar görüş-qəbullar keçirilmişdir. Həmin görüşlərdə iştirak edənlərin sayı 5.770 nəfər, müraciət edənlərin sayı 116 nəfər olmaqla 78 təklif irəli sürülmüşdür. Qaldırılan problemlər və təkliflərdən 33-ü icra edilmiş, 9 məsələ üzrə işlər davam edir, 36 təklif ilə əlaqədar isə aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırılmışdır.

Sizi əmin edirəm ki, biz bundan sonra da həm Dövlət Proqramında nəzərdə tutulmuş vəzifələrin, həm də cari tapşırıqların həllində uğurla çalışacaq, ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlara öz töhfəmizi verəcəyik.

# QAZAX RAYONUNDA 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN 70 İLLİK YUBİLEYİNƏ HAZIRLIQ VƏ YUBİLEYİN QEYD OLUNMASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR PLANI HAZIRLANMIŞDIR

**Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərovun 12 mart 2015-ci il tarixli sərəncamı ilə Qazax rayonunda 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması ilə əlaqədar olaraq tədbirlər planı hazırlanmışdır.**

Tədbirlər planına əsasən Qazax rayonunda 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin təntənəli qeyd olunması nəzərdə tutulmuşdur.

Xatirə komplekslərinin ziyarət edilməsi, 1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyi ilə əlaqədar Qazax şəhərində müharibə veteranlarının, arxa cəbhə zəhmətkeşləri nümayəndələrinin iştirakı ilə təntənəli yığıncağın keçirilməsi tədbirlər planına daxil edilmişdir.

Rayonun kütləvi informasiya vasitələrində 1941-1945-ci illər müharibəsinə və bu müharibədə qələbəyə həsr edilmiş məlumatların yayılması, sənədli və bədii filmlərin nümayişi də tədbirlər planında öz əksini tapmışdır.

1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyinə həsr edilmiş sənədlərin, plakatların, fotomaterialların, əsərlərin, əşyaların sərgisinin, 1941-1945-ci illər müharibəsinə və həmin müharibədə qələbəyə həsr edilmiş əsərlərin, kitabların sərgisinin təşkil edilməsi də tədbirlər planında əks olunmuşdur.

O cümlədən rayonunun təhsil müəssisələrində 1941-1945-ci illər müharibəsi iştirakçıları ilə görüşlərin, 1941-1945-ci illər müharibəsinə həsr olunmuş vahid dərsin (günün) keçirilməsi tədbirlər planına daxil edilmişdir.

Həmçinin 1941-1945-ci illər müharibəsi veteranları və gənclər cəlb edilməklə, 1941-1945-ci illər müharibəsinin mühüm hadisələrinə həsr olunmuş görüşlərin, gənclərin xatirə komplekslərinə ziyarətlərinin, hərbi hissələrdə müharibə veteranları ilə görüşlərin təşkil edilməsi də qeyd edilmişdir.

Eyni zamanda müharibə veteranlarının iştirakı ilə 1941-1945-ci illər müharibəsinə həsr edilmiş dəyirmi masaların, bədii proqramların, görüşlərin, idman tədbirlərinin keçirilməsi də tədbirlər planında göstərilmişdir.

Tədbirlər planına uyğun olaraq 1941-1945-ci illər müharibəsi ilə əlaqədar olan xatirə yerlərinin (təxliyyə hospitallarının, qəbirstanlıqların, memorialların, abidələrin) pasportlaşdırılması və onun elektron variantının yaradılması, hərbi qəbirstanlıqların, memorial və xatirə komplekslərinin abadlığının təmin edilməsi, 9 may günü ərəfəsində onlara baxış keçirilməsi nəzərdə tutulmuşdur.

1941-1945-ci illər müharibəsi iştirakçıları barədə məlumat bazasının dəqiqləşdirilməsi və təkmilləşdirilməsi, eyni zamanda 90 yaşına çatmış veteranların yubileylərinin təşkil edilməsi vurğulanmışdır.

1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyi dövründə 1941-1945-ci illər müharibəsi veteranlarının şəhərlərarası və beynəlxalq telefon danışıqlarından istifadə etmələrinə şərait yaradılması, o cümlədən qələbənin 70 illiyinin qeyd edilməsi günlərində veteranları və onları müşayiət edən şəxslərin nəqliyyat vasitələrindən ödənişsiz istifadəsinin təmin edilməsi (taksidən başqa) tədbirlər planında göstərilmişdir.

1941-1945-ci illər müharibəsində qələbənin 70 illiyi ilə əlaqədar müharibə iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi də tədbirlər planında öz əksini tapmışdır.

Tədbirlər planında qeyd olunan bütün məsələlərlə bağlı aidiyyatı idarə və müəssisələrin rəhbərlərinə tapşırıqlar verilmişdir.

**"GÖYƏZƏN"**

# Qazax rayonunda forum keçirilmişdir

**İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Qazax rayonunun Ağköynək kəndində sahibkarlığın güzəştli kreditləşdirilməsi məsələlərinə dair işgüzar forum keçirilmişdir. İşgüzar forumun keçirilməsində əsas məqsəd sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizmi barədə geniş məlumat verilməsi, Qazaxda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələrin hazırlanıb təqdim olunması, sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin möhkəmləndirilməsi, sahibkarların invenstisiya layihələrinin maliyyələşdirilməsi və digər məsələlər olmuşdur.**



Foruma bank rəhbərləri, bələdiyyə sədrləri və 80-ə yaxın sahibkar dəvət olunmuşdur.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açaraq respublikamızda, eləcə də rayonumuzda sahibkarlığın inkişafı ilə bağlı dövlət səviyyəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər barədə forum iştirakçılarına ətraflı məlumat vermişdir.

Sahibkarlığa Kömək Milli Fondunun əməkdaşı Elnur Abbasov çıxış edərək Qazaxda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələrin hazırlanıb təqdim olunması, sahibkar-müvəkkil kredit təşkilatı münasibətlərinin möhkəmləndirilməsi və digər məsələlər barədə danışmışdır.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev öz çıxışında sahibkara güzəştli kreditin verilməsi mexanizmi, sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsi və digər məsələlər barədə məlumat vermişdir. Bildirmişdir ki, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2015-ci ilin ötən dövrü ərzində 1410 sahibkara 43,4 milyon manat güzəştli kreditlər verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 3200-ə yaxın yeni iş yerinin yaradılmasına imkan verir. Qeyd edilmişdir ki, ümumilikdə, indiyədək Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 5145 investisiya layihəsinin maliyyələşdirilməsinə 186,1 milyon manat güzəştli kredit verilmiş, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistic mərkəzlərin, taxıl anbarlarının, istixana təsərrüfatlarının, quşçuluq fabrikinin, cins iribuynuzlu heyvandarlıq komplekslərinin, çörək zavodlarının, meyvə-tərəvəz, ət, süd emalı, süfrə suları istehsalı, tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilmiş, 23400-dən çox yeni iş yerinin açılması imkanı yaradılmışdır.

Forum çərçivəsində Qazaxda güzəştli kredit ayrılmış meyvə-tərəvəz Konserv zavoduna və 80 ha sahədə kartof əkini işlərinə baxış keçirilmişdir. İldə 39,5 min ton konserv məhsulları istehsal etmək gücündə olan bu zavod Gürcüstan Respublikasında yaşayan soydaşlarımızın istehsal etdikləri kənd təsərrüfatı məhsullarını da tədarük edəcəkdir.

Sonra foruma dəvət olunmuş sahibkarlar çıxış etmiş və bir sıra təkliflər vermiş, rayonda sahibkarlığın inkişafına kömək məqsədilə kiçik emal sexlərinin yaradılmasına ehtiyac olduğunu söyləmişlər.

Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov tədbirə yekun vuraraq sahibkarlığın inkişafına kömək məqsədilə rayonda görülmüş işlərdən və bu cür tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışmışdır.

# "Gənclər və yeniyetmələr arasında narkomaniyaya qarşı mübarizə"

## Bu mövzuda rayonumuzda növbəti toplantı keçirilmişdir

***Ədəbiyyat Muzeyində rayon İcra Hakimiyyəti və Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclər və yeniyetmələr arasında narkomaniyaya qarşı mübarizə" mövzusunda toplantı keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyəti və hüquq-mühafizə orqanlarının rəhbərləri, səhiyyə, təhsil, mədəniyyət işçiləri, gənclər və yeniyetmələr, QHT və KİV nümayəndələri iştirak etmişdir.***




Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Zöhrab İsmayılov toplantını giriş sözü ilə açaraq məruzə ilə çıxış etmişdir. Qeyd etmişdir ki, son illər rayonun hüquq-mühafizə orqanları tərəfindən narkomaniyaya qarşı aparılmış ardıcıl mübarizə və həyata keçirilmiş tədbirlər nəticəsində bu cür halların sayı xeyli azalmış, narkomaniyaya qarşı mübarizə sahəsində görülmüş işlər, həyata keçirilmiş tədbirlər öz bəhrəsini vermişdir. Son illərin göstəriciləri bunu deməyə əsas verir ki, gənclər arasında aparılan hüquqi maarifləndirmə işləri böyüməkdə olan nəsildə narkomaniyaya qarşı böyük ikrah hissi oyatmışdır.

Sonra rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev, rayon prokurorunun müavini Rəfayıl Həsənov çıxış edərək narkomaniyaya qarşı aparılan mübarizə işlərindən, bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlərdən danışmışlar.

Mövzu ətrafında çıxışlar olmuşdur. "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Nəbiyev, Qarabağ Müharibəsi Veteranları, Əlilləri və Şəhid Ailələri İctimai Birliyi rayon təşkilatının sədri Xasay Balayev, Qazax şəhər 3 saylı tam orta məktəbin direktoru Vüqar Xasməmmədov, narkoloq həkim Nahidə Osmanova və başqaları çıxış edərək narkomaniyanın profilaktikası, ona qarşı mübarizənin yolları haqqında maraqlı fikirlər söyləmiş və öz mülahizələrini bildirmişlər.

Qeyd olunmuşdur ki, artıq 10-cu dəfə keçirilən belə hüquqi maarifləndirmə tədbirləri öz bəhrəsini verməkdədir. Artıq bu tədbirlərin keçirilməsinə başlandığı gündən bəri rayonda narkomanlıq halları xeyli dərəcədə azalmışdır. Bu da keçirilən tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

**"GÖYƏZƏN"**

# Rayonumuzda ağac əkini kampaniyası uğurla başa çatmışdır

**"İDEA" İctimai Birliyi tərəfindən həyata keçirilən I "Ümumrespublika Yaşıllaşdırma" marafonu çərçivəsində Qazax rayonunda ağac əkini kampaniyası uğurla həyata keçirilmişdir.**

Bu məqsədlə Bakı-Qazax magistral avtomobil yolunun rayonumuzdan keçən 46 km hissəsinin sağ və sol kənarlarında yeni tinglər basdırılmışdır. Yeni salınan yaşıllıq zolaqlarında həmişəyaşıl ağaclarla yanaşı meyvə ştilləri də əkilmişdir ki, bu da yolun kənarlarına xüsusi gözəllik verir.

Magistral yolun kənarları ilə yanaşı rayonun yaşayış məntəqələrinin ərazisinə də yeni fidanlar basdırılmışdır. Yeni ştillər əvvəlcədən müəyyənləşdirilmiş ərazilərə planlı şəkildə əkilmişdir. Torpağa əkilmiş ağaclar dərhal suvarılmışdır ki, bu da yeni ştillərin tez kök atmasına şərait yaratmışdır.

Sürətlə və mütəşəkkil şəkildə aparılan ağac əkini kampaniyası uğurla başa çatdırılmışdır. Magistral yolun kənarlarında və rayonun ayrı-ayrı yaşayış məntəqələrində 16 min ədəd yeni Eldar şamı, Küknar və s. ağaclar əkilmişdir.

Onu da qeyd edək ki, yaşıllaşdırma kampaniyası iməcilik yolu ilə həyata keçirilmişdir. Bu ümumxalq işində demək olar ki, rayonumuzda fəaliyyət göstərən idarə və müəssisələrin kollektivləri, bütün rayon sakinləri iştirak etmişdir.

**"GÖYƏZƏN"**

**Respublika Prezidentinin Sərəncamı icra olunur**

# TƏBRİK EDİRİK



***Respublikamızın hər yerində olduğu kimi Qazax rayonunda da Respublika Prezidenti İlham Əliyevin 23 fevral 2015-ci il tarixli, 1060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "1941-1945-ci illər Müharibəsində Qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd oluması üzrə tədbirlər planı"nın icrası ilə əlaqədar Qazax rayonunda da tədbirlər planına uyğun olaraq bir sıra işlərin həyata keçirilməsinə başlanılmışdır. Bu məqsədlə rayonda müvafiq tədbirlər planı işlənib hazırlanmış və rayon İcra Hakimiyyəti başçısının 12 mart 2015-ci il tarixli, 20/30 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.***

Rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda, əmək kollektivlərində, Böyük Vətən Müharibəsində Qələbənin 70 illik yubileyinə həsr olunmuş tədbirlərin (görüş, dəyirmi masa, bədii proqramlar) keçirilməsinə, müharibədə qələbəyə həsr olunmuş əsərlərin, foto materialların, kitabların sərgisinin təşkilinə, rayonun təhsil müəssisələrində, eləcə də hərbi hissələrdə 1941-1945-ci illər müharibəsinin iştirakçıları ilə görüşün, idman tədbirlərinin keçirilməsinə, Böyük Vətən Müharibəsinin 90 yaşına çatmış veteranlarının yubileylərinin təşkil edilməsinə başlanılmışdır.

Həmin tədbirlər çərçivəsində Qazax rayon İcra Hakimiyyətində Böyük Vətən Müharibəsi iştirakçısı Süleymanov Xanqulu Dursun oğlunun 90 illik yubileyi də keçirilmişdir.

Qazax rayonu İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açaraq qələbənin 70 illiyi münasibətilə bütün xalqımızı, müharibə iştirakçılarını və 90 illik yubileyi münasibətilə Xanqulu Süleymanovu təbrik etmiş, ona uzun ömür, möhkəm can sağlığı arzulamışdır.

Qeyd olunmuşdur ki, 1925-ci il aprel ayının 25-də anadan olan X.Süleymanov 16 yaşında könüllü olaraq cəbhəyə gedərək Böyük Vətən Müharibəsində iştirak etmişdir. Onun döyüş yolu 77-ci Qırmızı Bayraqlı Azərbaycan diviziyasının tərkibində Azov dənizindən başlamışdır. Sonra IV Ukrayna cəbhəsində Kerç, Sevastopol şəhərlərinin və Krımın azad olunması uğrunda gedən ölüm-dirim savaşlarında, Lvov şəhərinin azad olunmasında iştirak etmişdir. 1945-ci ilin fevral ayında ağır yaralandıqdan sonra ordu sıralarından tərxis olunmuşdur.

X.Süleymanov ordu sıralarında olduğu vaxt göstərdiyi igidliyə və qəhrəmanlıqlara görə "Qırmızı ulduz", "I dərəcəli Böyük Vətən Müharibəsi" ordenləri, "İgidliyə görə" və Qələbənin ildönümləri ilə bağlı müxtəlif medallarla təltif olunmuşdur.

X.Süleymanov ordudan tərxis olunduqdan sonra ali təhsil almış və əmək cəbhəsində fəaliyyətə başlamışdır. Uzun müddət Azərbaycanın bir sıra rayonlarında bank sistemində, təsərrüfat sahəsində çalışmışdır. Hazırda Böyük Vətən Müharibəsi, Əmək və Silahlı Qüvvələr Veteranı İctimai Birliyinin Qazax rayon şöbəsinin sədridir. Təcrübəsini gənclərdən əsirgəmir və onların vətənpərvərlik ruhunda tərbiyə olunmasına çalışır. Tədbirdə çıxış edənlər Xanqulu Süleymanovu 90 illik yubileyi münasibətilə təbrik etmiş və ona can sağlığı arzulamışlar.

Sonda Xanqulu Süleymanov çıxış etmiş, ona və müharibə iştirakçılarına göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə, dövlətimizə və rayon İcra Hakimiyyətinə öz dərin minnətdarlığını bildirmişdir. Ölkəmizin inkişafı üçün bundan sonra da öz qüvvə, bilik və bacarığını əsirgəməyəciyini söyləmişdir.

X.Süleymanov 90 illik yubileyi və rayonun sosial-iqtisadi həyatında fəal iştirakına, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsindəki fəaliyyətinə görə rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif olunmuş, ona qiymətli hədiyyə və pul mükafatı verilmişdir.

# Tədbir keçirilmişdir

***Rayon İcra Hakimiyyətinin və "Avey" Dövlət-Tarix Mədəniyyət Qoruğunun təşkilatçılığı ilə mədəni irsin qorunması işinin təbliğ olunması və abidələrimizin, tarixi yerlərimizin qorunması istiqamətində silsilə tədbirlər həyata keçirilir. Həmin tədbirlərdən biri də rayonun Ş.Çobanov adına Ağköynək kənd tam orta məktəbində keçirilmişdir. Tədbirdə təhsil və mədəniyyət işçiləri ilə yanaşı məktəb şagirdləri də iştirak etmişdir.***

Məktəbin direktoru Səfura Rəhimova tədbiri giriş sözü ilə açmışdır. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Səadət Əliyeva çıxış edərək Beynəlxalq Abidələr və Tarixi Yerlər günü ilə bağlı şagirdlərə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, azyaşılı şagirdlərin abidələrimizin və tarixi yerlərimizin qorunması, onlarda həmin abidələrə maraq yaranması məqsədilə bu cür tədbirlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Sonra ərazidə yerləşən ulu əcdadlarımızdan bizə miras qalmış tarixi abidələrimiz haqqında, istər atəşpərəst, istər xristian, istər islam və digər dini inanclara sitayiş etmiş insanların yaratdığı maddi-mədəniyyət nümunələrini özündə saxlayan tarixi abidələrin şəkillərini göstərməklə qoruq haqqında ətraflı məlumat vermişdir.

Daha sonra qoruq ərazisində yerləşən vulkan mənşəli Göyəzən dağı, qayalardan damla-damla süzülüb gələn dünya əhəmiyyətli Damcılı bulağı, Qafqazda ilk insanların yaşayış yerlərindən biri olan Daş Salahlı mağarası, digər tarixi, memarlıq, inanc yerləri haqqında video çarx nümayiş etdirilmiş, şagirdlərlə bu abidələrin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində söhbətlər aparılmışdır.

Tədbirin sonunda məktəb şagirdləri bu yerləri, bu abidələri öz gözləri ilə görmək və ziyarət etmək arzularında olduqlarını bildirmişlər. Qoruq rəhbərliyi yaxın vaxtlarda onları qoruğa ekskursiyaya aparacağını demişdir.

# 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |
| | Alıyev Məmməd Oruc oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | | |
| | Həsənov Mehdi Alı oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | | |

***Qeyd:***

1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :

**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# QAZAX SEMENT ZAVODUNUN GƏNCLƏRİ YAP SIRALARINA DAXİL OLMUŞDUR

**"Qazax sement zavodu" MMC-nin fəaliyyətə başlamasından az müddət keçməsinə baxmayaraq regionun ən böyük sənaye müəssisələrindən birinə çevrilmişdir. Müəssisə öz istehsal gücünü artırmaqla yanaşı istehsal etdiyi məhsulların çeşidini də çoxaltmışdır.**



Zavodda çalışanların əksəriyyətini gənclər təşkil edir. Onların siyasi dünya görüşlərinin formalaşmasında YAP Qazax rayon təşkilatı Qazax sement zavodu üzrə ərazi ilk partiya təşkilatı mühüm işlər görür.

YAP Qazax rayon təşkilatı Qazax sement zavodu üzrə ərazi ilk partiya təşkilatının növbəti yığıncağı keçirilmişdir. Təşkilatın sədri Əlif Məmmədov iclası giriş sözü ilə açaraq "Qazax sement zavodu" MMC-nin baş direktoru Hikmət Qəribovun rəhbərliyi altında qazanılan uğurlardan, respublikamızın iqtisadiyyatı sektorunda zavodun böyük əhəmiyyət kəsb etməsindən danışmışdır.

"Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl, zavodun direktoru Yusif Ziya Bəkiroğlu, insan resursları şöbəsinin müdiri Şahin Həsənov, partiyaya yeni qəbul edilən gənclərdən Nicat Məmmədzadə, Mehriban Poladova çıxış edərək kollektivdə gənclərə böyük diqqət və qayğı göstərildiyini qeyd etmişlər.

Sonra YAP sıralarına yeni qəbul edilən gənclərin adları oxunmuş və səsə qoyulmuşdur. Açıq səsvermə yolu ilə 23 nəfər gənc partiya sıralarına qəbul edilmişdir.

**"GÖYƏZƏN"**

# Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin xatirəsi anılmışdır

**Qazax rayon İcra Hakimiyyətinin və Qazaxbəyli kənd tam orta məktəbin birgə təşkilatçılığı ilə telejurnalist, publisist, şair, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Azərbaycan Respublikasının əməkdar jurnalisti və Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayevin xatirəsi anılmışdır.**



Tədbirdə rayon İcra Hakimiyyətinin, Təhsil şöbəsinin məsul işçiləri, kənd ağsaqqalları, müəllim və şagirdlər, QHT və KİV nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə Alı Mustafayevin vaxtilə təhsil aldığı Qazaxbəyli kənd tam orta məktəbin direktoru Mətanət Ayvazova açmış, Milli Qəhrəmanın həyatı, əmək fəaliyyəti və keçdiyi döyüş yolu barədə tədbir iştirakçılarına ətraflı məlumat vermiş, respublikamızda Milli Qəhrəman və şəhid ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışmışdır. Qeyd etmişdir ki, Alı Mustafayev erməni millətçilərinin hərbi birləşmələrinin Azərbaycana hücumu zamanı qələmini silaha çevirərək Dağlıq Qarabağdan-qaynar nöqtələrdən, eləcə də yüksək dövlət səviyyəli rəsmi görüşlərdən hazırladığı müsahibə və reportajlarla xalqın rəğbətini qazanmışdır. O, Moskvada Azərbaycan Respublikası Milli Məclisi tərəfindən parlament müxbiri olmuşdur. 1991-ci ildə fəaliyyətinə görə "İlin ən yaxşı jurnalisti" mükafatına layiq görülmüşdür.

1991-ci ilin 19 noyabrında Dağlıq Qarabağın Qarakənd kəndi səmasında Azərbaycanın yüksək rütbəli dövlət nümayəndələrini aparan vertalyotun düşmən tərəfindən atılmış mərmi ilə vurulması nəticəsində faciəli şəkildə dünyasını dəyişmiş və şəhid olmuşdur.

Ölümündən sonra igidliyi və göstərdiyi şücaəti yüksək qiymətləndirilərək ona Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilmişdir. Alı Mustafayev bu gün xalqımızın qəlbində yaşayır. Vətən uğrunda dünyasını dəyişənlər və şəhid olanlar ölmürlər, əbədi yaşayırlar.

Sonra çıxışlar olmuşdur. Rayon İcra Hakimiyyətinin məsul işçisi Azad Hümbətov, Milli Qəhrəmanları Tanıtma İctimai Birliyi Qazax rayon şöbəsinin sədri Ülviyyə Poladova və Alı Mustafayevə vaxtilə dərs deyən müəllimlər, kənd ağsaqqalları Milli Qəhrəmanla bağlı xatirələrini söyləmişlər.

Qazaxbəyli kənd tam orta məktəbin şagirdləri Alı Mustafayevin vətənpərvərlik mövzusunda yazılmış şeirlərini səsləndirmişlər.

## YAZMIŞDIQ, YENƏ DƏ YAZIRIQ

# REKLAM, ELAN, YOXSA...

***Son illər şəhərimizdə həyata keçirilən tikinti-quruculuq işləri, aparılan abadlıq və yenidənqurma tədbirləri Qazağın simasını köklü şəkildə dəyişmişdir. Görülən təqdirəlayiq işlərin nəticəsidir ki, Qazax daha da gözəl və yaraşıqlı olmuş, respublikamızın ən abad şəhərlərindən birinə çevrilmişdir. Həyata keçirilən bu abadlıq, təmizlik və yenidənqurma işləri rayon rəhbərliyinin diqqət və qayğısı, şəhərdə aparılan məqsədyönlü işlərin məntiqi nəticəsidir.***



Bu gün şəhərin ünvanına daxil olan yeni adlar nəinki şəhərin gözəlliyini tamamlayır, eyni zamanda öz möhtəşəmliyi ilə də seçilir. Hansı ki, rayonun ünvanını bildirən və möhtəşəmliyi ilə seçilən "Obelisk", milli və mənəvi dəyərlərimizi özündə birləşdirən "Bayraq Meydanı", "Qüllə", gənc nəslin və yeniyetmələrin yetişməsində olduqca əhəmiyyətli olan "Gənclər Mərkəzi", "Şahmat Mərkəzi", gənc rəssamların bu sahəyə olan marağınının artırılmasında əvəzsiz olan "Rəsm Qalereyası", planetariuma görə dünyada 4-cü, Azərbaycanda isə 2-ci sayılan "Heydər Əliyev Elm Mərkəzi" və gözəl bir park. Sadalamaqla bitirmək olmur. Eyni zamanda öz möhtəşəmliyi və maraqlı kitab forması ilə seçilən "Ədəbiyyat Muzeyi", sağlam düşüncəli, sağlam ruhlu insanları, gəncləri ətrafında birləşdirən Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatı üçün tikilən yeni inzibati bina, dahi şəxsiyyətlər üçün ayrılan və şəhərimizin simasına daha bir rəng qatan "Fəxri Qazaxlılar parkı", körpə fidanların əyləncəsi üçün yaradılan "Uşaq Əyləncə Mərkəzi" və daha nələr-nələr... Bütün bunlar, yaradılan bu mərkəzlər, muzeylər Qazağın inkişafı demək deyilmi?

Bəli, Qazax doğrudan da gözəl və yaraşıqlı şəhərdir. Lakin bəzi çatışmamazlıqlar vardır ki, onlar da şəhərin gözəlliyinə xələl gətirir. Bunlar ilk baxışdan xırda görünsələr də son nəticədə şəhər sakinlərində, eləcə də rayonumuza gələn qonaqlarda müəyyən qədər də olsa xoşagəlməz hisslər doğurur.

Reklam. Elan. Bildiriş. Bunlar günün ən vacib məsələlərindən biridir desək, məncə yanılmarıq. Çünki mağazanın, məhsulun, xəbərin ilk göstəricisi məhz reklam, elan və bildirişlərdir. Bunlar nə qədər yığcam, nəzərə çarpacaq və dəqiq olsa daha məqsədəuyğun və cəlbedici olar. Bu zaman ikinci vacib olan məsələlərdən biri də bu reklam və elanların haraya vurulması və yaxud haradan asılmasıdır.

Bütün bunları nəzərə alaraq şəhərimizdəki reklam, elan və bildirişlərin nə vəziyyətdə olması və haradan asılması ilə maraqlandıq. Gördüyümüz mənzərə və qarşılaşdığımız vəziyyət heç də ürəyimizcə olmadı. Bu barədə rayon sakinləri ilə söhbət zamanı onların da bu fikirdə olduqlarını müəyyən etdik. Qeyd etdiyimiz reklam, elan və bildirişlərin necə və nə şəkildə




yazılması bir yana, onların haradan gəldi asılması bir rayon sakini kimi bizdə acı təəssüf hissləri oyatdı: Axı, bu niyə belə olmalıdır?.

Təəssüflər olsun ki, bu sahədə vəziyyət heç də ürəkaçan deyil. Ona görə ki, reklam və bildirişlər olduqca aşağı və primitiv səviyyədə hazırlanmış və şəhərin harasına gəldi vurulmuşdur. Hələ biz əllə yazılmış küçə, park, dayanacaq və ağaclara vurulmuş onlarla kağız parçalarını demirik. Kimi ev satır, kimi həyətyanı torpağını satışa qoyur, kimi də... Fikrimizcə elanları kağız parçalarına yazıb hara gəldi vurmaqdansa, rayon qəzetinə elan vermək olar və bu, daha effektli alınar.

Şəhərimizdə yaşıl parklar, əyləncəli yerlər, istirahət məkanları yetərincədir. Amma bu asudə vaxt mərkəzlərində elə elanlara, elə yazılara rast gəlirik ki, adam təəccüblənməyə bilmir. "ÇAY", "FOTO", "LEPKA", "PİVƏ", "EFES" və bu kimi sözlər yazılmış lövhələr az qalır ki, adamın gözünü çıxartsın. Bu bir yana, bu mənzərə istər-istəməz adamda ikrah hissləri oyadır və min bir zəhmət bahasına yaradılmış gözəlliyə zərbə vurur.

Bundan başqa Heydər Əliyev prospekti ilə yol boyunca hərəkət etdikcə bir-birindən qəribə elanlara, reklamlara rast gəlirik. Hələ biz mağazaların, ticarət köşklərinin qarşısına "CİLDLƏMƏ", "KSEROKOPİYA" yazılmış əcaib və yeknəsək yazıları, sözləri demirik. Onlar da olduqca yöndəmsiz və xoşagələn deyil. Ən qəribəsi isə odur ki, bu mağaza, dükan sahibləri hərəyə bir çəkic götürüb yazdıqları elan və reklamları ürəkləri istədikləri yerə, xətirləri çəkən ağaclara mismarla vurublar. Reklam vuran adamların bir qismini imkansızdır deyə başa düşmək olar. Ancaq bu cür hərəkət edən banklara necə haqq qazandıraq. İş o yerə gəlib çatıb ki, kredit verib, pul satıb pul qazanan banklar belə öz reklamlarını ağaclara vururlar.

Məsələnin digər tərəfi də var. Məgər ağacın gövdəsinə vurulan mismar təbiətə vurulan qəsd deyilmi? Ağacı mismarlayan insanlara bir sualımız var: Ömrünüzdə heç bir ağac əkmisinizmi? Sualın cavabı aydındır. Görmüşük ağacın dibi boşaldılaraq əkilər, gövdəsi həşəratlardan qorunmaq üçün ağardılar, ehtiyac olarsa budaqları daranar. Lakin ağacı zədələmək, mismarlamaq, bu heç də yaxşı iş sayılmaz.

Sözümüzün canı odur ki, şəhərimizə bu cür reklam və elanlar lazım deyil. Çünki bunlar şəhərimizin gözəlliyinə xələl gətirir. Görünür bu xoşagəlməz vəziyyət aidiyyatı orqanların "nəzərini cəlb etməyib". Yoxsa... Əgər indiyədək reklam və elanları ağaca mismarlayanlar üçün bir cərimə tədbiri görülsəydi, belə xoşa gəlməz vəziyyət yaranmazdı. Və bəlkə ondan sonra ağacların canı mismar və çəkicdən qurtarardı.

**Xuraman ƏZİMOVA**

# Qida məhsulları təhlükəsizliyinin təmin edilməsi

ISO-22000: Qida sənayesi üçün özünənəzarət sistemi olaraq, qida təhlükəsiziliyi və qida çirklənməsi ilə bağlı problemlərin aradan qaldırılmasına əsaslanır. Bu, qida təhlükəsiziliyinə təminat vermə sistemidir. Bu sistem insan sağlamlığı üçün potensial təhlükələrin qarşısının alınması üçün müəyyən edilmiş fəaliyyətlərə əsaslanır. Bu fəaliyyətlərin bəzisi məcburidir və istehlakçılar üçün təhlükəsiz qidaya təminat vermək məqsədilə dövlət tərəfindən tələb edilir. Qanunla bağlı belə işlərdə qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələr bu tələblərə riayət etməlidirlər.

### *Beynəlxalq əhəmiyyəti*

Qida təhlükəsizliyinə təminat vermək üçün ən səmərəli vasitə kimi beynəlxalq miqyasda qəbul edilmişdir. Ümumdünya Səhiyyə Təşkilatı ISO-22000: Dünya üzrə qida təhlükəsizliyinə təminat verən seçim sistemi kimi aydın şəkildə müəyyən etmişdir.

### *Məqsədi*

Qida istehsalı təhlükələrinin araşdırılması, qiymətləndirilməsi və qarşısının alınmasına mütəmadi yanaşmadan ibarət sistemdir. ISO-22000: qəbul edilməli ümumi prinsip və metodları müəyyən edir. Bu prinsip və metodları tətbib etməklə hər bir təşkilat özünün iş təcrübəsinə, şəraitnə və istehsal üsuluna xas olan sistemi həyata keçirə bilər. ISO-22000: qida təhlükəsizliyinin praktiki təminat və həyata keçirmək üçün menecment imkanını verən təhlillər sistemidir.

### *Prinsipləri*

Qida istehsalı zamanı kritik nöqtələri müəyyən etməklə bütün qida istehsalı mərhələlərinin (xam materialın emalından tutmuş qida məhsullarının istehsalına və onların müştərilərə çatdırılmasına qədər) sistematik şəkildə qiymətləndirilməsini nəzərdə tutur. Beləliklə, ISO-22000: yalnız son məhsulun yoxlanmasını deyil, bütün istehsal və çatdırılma proseslərində qida təhlükəsizliyinə nəzarət etmə sistemidir.

7 prinsip əsasında qurulmuşdur:

- Bioloji, kimyəvi və fiziki olaraq bütün potensial qida təhlükələrinin müəyyənləşdirilməsi
- Xammal, anbarlar, istehsal prosesi, çatdırılma və istehlak mərhələlərində kritik nəzarət nöqtələrinin müəyyənləşdirilməsi
- Kritik nəzarət limitlərinin və preventiv addımların müəyyənləşdirilməsi, məsələn minimum bişmə temperaturu və zamanı
- Kritik nəzarət nöqtələrinin monitorinqi
- Korrektiv addımların müəyyənləşdirilməsi
- Qeydlərin aparılması
- Sistemin müstəqil üçüncü tərəf vasitəsilə sistematik və müntəzəm olaraq yoxlanılması

### *Kimə lazımdır?*

Hal-hazırda istehlakçılar tərəfindən göstərilən tələb ərzaq istehsalçılarını və ümümiyyətlə qida sektorunda işləyən bütün digər strukturları daha təhlükəsiz ərzaq menecmenti sistemlərini, məsələn ISO-22000: Tətbiq etməyə sövq edir. ISO-22000: Avropa, ABŞ və bəzi Asiya ölkələrində ərzaq ilə bağlı bütün biznes sahələri üçün vacibdir və bu ölkələrin bazarlarına girmək istəyən hər hansı bir ərzaq istehsalçısı mütləq bu sistemə malik olmalıdır.

Faydaları:

- Qida istehsalı ilə əlaqədar risklərin azaldılması və qida çirklənməsi və zəhərlənməsi mümkünlüyünün qarşısının alınması üçün ən səmərəli vasitədir;
- Qida istehsalında istehsal xərclərinin aşağı salınmasına apara bilər, çünki texniki resurslar kritik nöqtələrdə cəmlənmişdir;
- istehsal itkilərini azalda bilər, belə ki, problemlər daha sonra deyil, məhz istehsal gedişində müəyyən və həll edilə bilər;
- sertifikatlaşdırılması müştərilər üçün qida təhlükəsizliyinin düzgün idarə edilməsini nümayiş etdirəcəkdir;
- bazar payının artmasına köməklik göstərəcəkdir;
- sertifikatlaşdırılması Avropa, ABŞ və bəzi Asiya ölkələrinin bazarlarına daxil olmaq üçün ön şərtdir.

ISO-22000: sistemini öz müəssisənizdə tətbiq edib-etməməyi qərara alarkən yadda saxlayın ki, bu, qida təhlükəsizliyini təmin etmək üçün seçim sistemi kimi beynəlxalq miqyasda qəbul edilmişdir. Sertifikatlaşdırılmış ISO-22000: sistemi ictimaiyyətə müştərilərin təhlükəsizliyi üçün sizin narahatlığınızı nümayiş etdirəcəkdir.

ISO-22000:-ın həyata keçirilmə prosesi

Mərhələ

1) İnsan sağlamlığı üçün bütün potensial təhlükələ müəyyən edilməsi

2) Təhlükəni və onun ciddiliyini müəyyənləşdirilməli

3) Onun yaranma ehtimalı dəqiqləşdirilməli

4) Daha sonra riski - təhlükənin baş vermə mümkünlüyünü və baş verə biləcək nəticələri müəyyən etməli.

# TƏHLÜKƏSİZ QİDALANMA QAYDALARI

**Azərbaycanda hər il bağırsaq infeksiyaları və qida toksikoinfeksiyaları halları qeydə alınır. Törədicisi müəyyən olunmuş və olunmamış enterit, kolit, qastroenteritlər, qida toksikoinfeksiyaları xəstəlikləri ilə 2012-ci ildə - 13836; 2013-cü ildə isə - 13372 nəfər qeydə alınmışdır.**

### *Bakterial qida zəhərlənmələri barəsində müxtəlif faktlar*

Bakterial qida infeksiyaları çirklənmiş qidaların qəbulu nəticəsində-qızılı stafilokoklar, salmonella, dizenteriya çöpləri və digər potegen mikroorqanizmlərin müxtəlif növləri tərəfindən törədilən və adətən sağalma ilə nəticələnən kəskin bağırsaq xəstəlikləridir.

Bilmək lazımdır!

Qida infeksiyaları ümumi simptomlar (əlamətlər) qusma, duru nəcis və ya ishal, qarın nahiyəsində müxtəlif xarakterli ağrı, başağrısı və ümumi zəiflik ilə xarakterizə olunur.

Qida infeksiyalarının profilaktikasının 5 əsas prinsipi:

1. Şəxsi gigiyena qaydalarına riayət edin və mətbəxi təmiz saxlayın. Patogen mikroorqanizmlər hazır qidaya və ərzağa çirkli əllərdən, həmçinin çirklənmiş geyimdən və baş tükündən düşə bilər. Artıq qida qalıqlarının çürüntüsü, yuyulmamış mətbəx əşyaları bakteriyaların inkişafı üçün qidalı mühit və yoluxma yolu ola bilər. Bakteriyalar əsasən milçəklər, tarakanlar və gəmiricilər vasitəsilə yayılır. Xörək hazırlayan zaman əllərinizi yaxşı yuyun, təmiz önlük bağlayın, saçlarınızı yığıb yaylıqla örtün, mətbəx əşyalarını (ət maşını, bıçaq, qabqacaq və s.) hər dəfə istifadə etdikdən sonra təmiz yuyun və isti suda qaynadın.

2. Hazırlanmış qidanı çiy məhsullardan ayrı saxlayın!. Çiy ət, quş əti, yumurta və süd məhsullarında xəstəlik törədən mikroorqanizmlər ola bilər. Bu da hazırlanmış qidaya düşərsə, sürətlə çoxalar. Çiy və bişmiş hazır xörəkləri soyuducunun ayrı-ayrı rəflərində ağzı qapaqlı qablarda saxlayın.

3. Bütün ərzaqları yaxşı qaynadın və ya qızardın. Hətta, xırda doğranmış ərzaqları (tərəvəzləri) 10 dəqiqədən az olmayaraq qaynadın və ya qızardın, pasterzə və isterilizə olunmayan süd içməyin, istifadə etməzdən əvvəl südü qaynadın.

4. Ərzaqları soyuducuda saxlayın. 4-60 C-dən aşağı temperaturda mikroorqanizmlərin çoxalması azalır və ya dayanır. Buna görə də tez xarab olan ərzaqları soyuducuda saxlayın. Təzə hazırlanmış xörəkləri ev temperaturunda 2 saatdan çox saxlamayın.

5. Yalnız təzə və xarab olmayan ərzaqlardan istifadə edin. Ərzaq aldıqda onun istehsal tarixinə, yararlılıq müddətinə və qablaşdırma tamlığının pozulmadığına fikir verin.

### *Bunları hər kəs bilməlidir*

➔ Soyuducunun əsas şöbəsində temperatur 4-60 C, buz kamerasında isə mənfi 12-180 C olmalıdır.

➔ Soyuducunun yüklənməsi və ya isti xörəyin soyuducuya qoyulması temperatur rejimini sıradan çıxarır və bu da soyuducuda saxlanan ərzaqların xarab olmasına səbəb olur.

➔ Bəzi bakteriyalar 60 C-dən aşağı temperaturda çoxala bilir. Ərzaqların bakteriyalarla yoluxmaması üçün ayda 1 dəfədən az olmayaraq soyuducunu yuyub qurulamaq lazımdır.

➔ İstifadə etdiyiniz suyun keyfiyyətinə diqqət yetirin. Qab-qacağı qaynar su, meyvə və tərəvəzləri isə qaynanmış soyuq su ilə yaxalayın.

➔ Bir çox ədviyyatların tərkibində çox miqdarda mikrob və ya sporlar olur. Buna görə ədviyyatı xörəyi bişirən zaman əlavə etmək lazımdır ki, ədviyyat istilik işləməsindən keçsin.

Yadda saxlayın!

Əgər biz təhlükəsiz qidalanma qaydalarına düzgün şəkildə riayət etsək, qida zəhərlənmələrinin sayı tamamilə minimum səviyyəyə düşər.

## BİZƏ YAZIN

# 100 il yaşamaq istəyirsiniz?

## "Göyəzən" qəzeti "Kim ki, yüz il yaşamasa..." rubrikasını açır

**Piyada gəzən insanlar avtomobildə gəzən insanlardan fərqli olaraq ömrün yüzüncü ilinə qədər olan məsafəni qət edə bilərlər.**

Müasir zamanda insan sağlamlığı üçün ən böyük təhlükə yaradan amillərdən biri oturaq həyat tərzidir.

Təəssüflər olsun ki, indi bir çox insanlar ən qısa bir məsafəni belə şəxsi avtomobilləri, yaxud da ictimai nəqliyyat vasitələri ilə qət etməyi daha üstün tuturlar. Ancaq bu fikirdə olan insanlar piyada gəzməyin insan sağlamlığı üçün faydalarını biləndən sonra yəqin ki, fikirlərindən az da olsa, daşınacalar. Xüsusilə idmanla məşğul olmağa vaxtı və həvəsi olmayan insanlar üçün piyada gəzmək daha vacibdir.

Bədənin normal formada qalmasını istəyənlər daha çox piyada gəzməlidirlər. Sürətli və templi gəzinti əzələləri möhkəmləndirir, bədən quruluşunu normal saxlayır, artıq çəkinin yığılmasına imkan vermir.

Piyada gəzmək ürək-damar sistemi üçün olduqca faydalıdır. Gəzinti zamanı qan dövranı yaxşılaşır, beyin və digər orqanlar oksigenlə daha yaxşı təchiz olunur.

Əhvalın xoş olması, stressin və gərginliyin aradan qaldırılması üçün gəzinti ən yaxşı vasitədir.

Gündəlik gəzinti insanı cavan və gümrah saxlayır, qocalma prosesini ləngidir.

Piyada gəzmək tənəffüs yolları üçün xüsusilə xeyirlidir.

Həzm sisteminin fəaliyyətinin yaxşılaşmasında da piyada gəzməyin faydası çoxdur.

Piyada gəzməyin görmə qabiliyyətinə də müsbət təsiri var.

Piyada gəzmək orqanizmin immun sistemini gücləndirir, müqaviməti artırır ki, bu da xəstəliklərə qarşı mübarizədə ən effektli vasitələrdən biridir.

Sağlam və dərin yuxu arzulayanlar axşam gəzintisinə vaxt ayırsalar, istəklərinə nail ola bilərlər.

Sağlamlığınız üçün sürətli gəzintiyə üstünlük verməlisiniz.

Yaradıcı insanlar üçün piyada gəzməyin özəl faydası var. Çünki gəzinti zamanı insan daha dərindən düşünə bilir.

Müntəzəm olaraq gün ərzində 30-40 dəqiqə piyada gəzməklə orqanizminizdə baş verən müsbət dəyişikliklərin şahidi olacaqsınız. Sağlam və gözəl olmaq üçün gəzintiyə vaxt ayırın, bir həqiqəti dərk edin ki, 100 yaşına gedən yollar maşın üçün nəzərdə tutulmayıb.

## İTMİŞDİR

14 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 06.06.2006-cı il tarixdə Abdullayev İsrəfil Həsənəli oğlunun adına verilmiş, VÖEN kodu 4200174701 olan "Ümid" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Ş.Çobanov adına Ağköynək kənd tam orta məktəbi tərəfindən 2010-2011-ci dərs ilində Əmiraslanov Omar Azər oğlunun adına verilmiş, A 057753 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*